Xalq qəzeti.- 2021.- 7 iyul.- S.6.




# Avro–2020: Finalın bir addımlığında

**Avro–2020-nin yarımfinalının ilk matçında İtaliya millisi ilə İspaniya yığma komandası qarşılaşdı. Bu oyuna qədər komandalar ikisi bir yerdə turnirdə 23 qol vurublar. Hər iki komanda turnirdə məğlubiyyətsiz oynayır. Lakin “Uembli”dəki dünənki qarşılaşmada nəhayət, komandalardan hansının məğlubiyyətsizlik seriyasına son qoyulduğu məlum oldu. Lakin oyun öncəsi bu iki komandadan hansının qalib gələcəyi barədə ən müxtəlif ekspert rəyləri söylənilirdi.**



## XXI əsrin turnirlərində İspaniya üstün olub

Bir qədər bu komandaların böyük turnirlərdəki qarşılaşmalarının tarixinə nəzər salası olsaq görərik ki, İtaliya və İspaniya millilərinin bu qarşılaşması Avropa çempionatlarında bu komandalar arasında keçirilən 4-cü qarşılaşmadır. 2008-ci ildə Vyanada İspaniya millisi 0-0 hesablı heç-heçədən sonra 11 metrlik zərbələrdə dörddəbir finalın qalibi olub. Avro – 2012-də Qdanskda turnirin qrup mərhələsində komandalar arasında 1-1 hesabı qeydə alınıb. Sonra komandalar həmin turnirdə Kiyevdə finalda qarşılaşıblar və İspaniya millisi 4 – 0 hesabı ilə İtaliya millisini darmadağın edib.

Nəhayət, Avro – 2016-da “Stad-de-Fransda” baş tutan səkkizdəbir final qarşılaşmasında İtaliya yığma komandası 2 – 0 hesabı ilə qalib gəlib. 2018-ci ildə Dünya çempionatının təsnifat mərhələsində komandalar İtaliyada 1 –1 hesablı heç-heçə ediblər. İspaniyada isə meydan sahibləri yenə 3-0 hesablı qələbə qazanan tərəf olublar. Bu ilin oktyabrında rəqibləri daha bir duel gözləyir. Onlar Millətlər Liqasının Milanda keçiriləcək yarımfinal matçında münasibətlərə aydınlıq gətirəcəklər.

## Nə üçün İtaliya Avro – 2020-nin qalibi olacaq?

Əlbəttə, bu tarixdir və hazırkı gerçəkliyə çətin elə önəmli təsir etmiş olaydı. Turnirdəki son qarşılaşmalarından tam aydın oldu ki, baş məşqçi Roberto Mançininin komandası topa nəzarəti əsas götürən hücum futbolunun vurğunudur. Meydanın mərkəzində yüksək texnikalı Marko Veratti, komandanın həqiqi mənada beyni Jorjinio və topu çox sürətlə və çevik hərəkət etdirən Nikola Barelli fəaliyyət göstərir. Üç sürətli hücumçu əla kombinasiya qurub gözəl qollar vurmağı bacarırlar. Federiko Keyzanın Avstriya millisinin qapısına vurduğu qolu və Lorenço İnsinyenin belçikalıların adlı-sanlı qapıçısı Tibo Kurtuanı məyus edən möhtəşəm qolunu xatırlamaq kifayətdir. Lakin bütün bunlarla yanaşı, zərurət yarandığı hallarda “Skuadra Adzurra”nın müdafiədə necə möhkəm olduğunu və Canluici Donnarummanın qapısının toxunulmazlığını necə etibarlı qoruduqları da yaxşı bəllidir. Bu işdə son dərəcə səriştəli olan Corciyo Kellini və Leonardo Bonuççi öz cərimə meydançalarına gələn topların, demək olar hər birini qladiatorlar kimi qapılarından uzaqlaşdırırlar.

İtaliya milli komandası üzrə müxbir Paolo Menikuççi məhz bu iki müdafiəçinin İspaniya ilə oyunda nümayiş etdirəcəkləri oyundan danışarkən deyib: “Bundan əvvəlki mərhələdə İtaliyaya qarşı dünyanın ən təhlükəli hücumçularından biri Romelu Lukaku oynayırdı. İki veteran-müdafiəçi müdafiədə oynamaq üzrə ənənəvi master-klass nümayiş etdirdilər. Doğrudur, bu Kellini və Bonuççinin sevdiyi gücün mübarizəsi idi. Plan ideal işlədi: Kellini hər ötürmədə dərhal Lukakuya hücum etdi, Bonuççi isə hər an onu sığortalamağa və kənara çıxan topu ələ keçirməyə hazır idi.

İndi tamam başqa mübarizə olacaq. Alvaro Morata təkcə bu iki mərkəz müdafiəçisinin ən kiçik sirlərini bilmir, həm də daimi hərəkətdə olmaqla onlara saysız-hesabsız problemlər yarada bilir. Bu heç də Lukakuya qarşı oynanılan oyun deyil. Lakin heç kim demir ki, “adzurra”nın müdafiədəki bu iki aslanı ilə kiməsə asan olacaq.

Ekspertlər İtaliya millisinin mütəşəkkil komanda oyununu onun qalibiyyətinə şans verən əsas amillərdən biri hesab edirlər. Bu mütəşəkkillik ilk gündən futbol mütəxəssislərinin ən çox üstünlük verdiyi keyfiyyətlərdəndir. Bonuççi müxbirlərə müsahibəsində bunu belə şərh edir: “Bizim Kriştiano Ronaldu və ya Romelu Lukaku kimi ulduz futbolçularımız yoxdur. Bizim başlıca ulduzumuz – komandadır”. Mərkəz müdafiəçisi buna qədər onu da söyləmişdi ki, bu komanda onun bu vaxta qədər oynadığı milli komandaların ən yaxşısıdır. Bonuççi isə nə az, nə çox milli komandasının heyətində beynəlxalq turnirlərdə yüzdən çox oyun keçirib.

Baş məşqçi Roberto Mançininin fantastik işlər gördüyünü deməyən ekspert qalmayıb. Futbolçular komandada bir yerdə olduqları hər dəqiqədən zövq alırlar və bu özünü meydanda da göstərir. Hər oyunçu qalan digər oyunçulara görə son nəfəsə qədər mübarizə aparmağa hazırdır. Ehtiyatda qalan oyunçular isə hər an meydana çıxmağa hazırdırlar. “Biz səhv etməkdən qorxmuruq, çünki hər an komandada sənə arxa ola biləcək oyunçu var. Əsas amil budur”, – deyə Françesko Açerbi əminliklə söyləyir.

Şərhçilər və mütəxəssislər Spinaççollinin Belçika millisi ilə ciddi zədə almasını Mançininin komandası üçün çox ciddi



itki hesab etmələri də əsassız deyil. “Roma” klubunda forma geyən sol kənar müdafiəçisi bu turnirdə parlayan əsas ulduzlardan biri oldu. Qrup mərhələsində bu müdafiəçi təsadüfən iki dəfə oyunun ulduzu seçilmədi. Dörddəbir final qarşılaşmasında da Spinaççoli dabanından ağır zədə alana qədər, demək olar meydanın bütün sahələrində var idi. Bu oyunda o, Lukakunun yaxın məsafədən qapıya endirdiyi zərbənin qarşısını aldı, bir neçə dəqiqədən sonra isə rəqib qapısına az qala qol vuracaqdı. Təbii ki, bu oyunçunun meydanda olmaması özünü göstərirdi.

## Turnirin ən yaxşı qapıçısı?

“Skuadra Adzurra”nın imkanlarını qiymətləndirən İtaliya millisi üzrə müxbir Paolo Menikuççi açıqlayıb ki, bu komandada hər bir oyunçu inanılmaz mütəşəkkillik nümayiş etdirir. Menikuççi komandanın ulduz qapıçısı 22 yaşlı Canluici Donnarummanın bu yaşda artıq veteran kimi oyun nümayiş etdirdiyini heyranlıqla qeyd edir. Qapıçı A seriyasında “Milan” klubunun heyətində artıq 215, millinin heyətində isə 31 oyunda meydana çıxıb. Əfsanəvi Canluici Buffondan sonra onu kimin əvəzləyəcəyi sualı daha italiyalıları çox da düşündürməməlidir. Çünki Canluicini onun ikinci versiyası əvəz edir.

Türkiyə, İsveçrə və Uelslə keçirilən ilk 3 matçda Donnarummanın qapısına çox nadir hallarda top vururdular. “Mən də birinci üç oyunda qapıda dura bilərdim”, – deyə İtaliyanın 61 yaşlı keçmiş qapıçısı Valter Dzenqa söyləyir. Lakin Belçikaya qarşı keçirilən oyunda italiyalı qolkiper möhtəşəm “seyvləri”lə yadda qaldı. Hətta Belçika İtaliya milliləri arasında keçirilən matçdan sonra çox maraqlı deyimlər yaranmağa başladı. Məsələn, italiyalılar deyir ki, Kevin de Brüyne onun zərbəsinin niyə hədəfə düşməməsi sualına indiyə qədər cavab tapa bilmir. “Mançester Siti” klubunun yarımmüdafiəçisi İtaliya millisinin qapısının uzaq küncünə topu fırlatmaqla güclü zərbə vurdu və qolunu sevinclə qeyd etməyə hazırlaşdığı bir məqamda, hardansa Donnarummanın əli peyda oldu və buna imkan vemədi. “Cici hamıya bir əminlik verir. Yarımfinala çatan qapıçılardan o, hamıdan çox inam saçır. O, dünyada nömrə bir ola bilər”, – deyə Dzenqa bildirir.

Bütün bunlar İtaliya yığma futbol komandasının üstünlüklərini göstərən və onun qalib gələcəyinə əsas verən keyfiyyətlər idi. Lakin futbol öz qeyri-adi hadisələri ilə azarkeşləri heyran edir. Belə bir turnirdə yarımfinala yüksələn komandaya etinasız yanaşmaq sonda məğlubiyyət acısı yaşada bilir. İspaniya millisinə yuxarıdan baxmaq isə ümumiyyətlə, böyük səhv olardı. Nə üçün?

## İspaniya niyə Avro –2020-də əsas favoritə çevrildi?

Əvvəlcə ondan başlayaq ki, son bir neçə mövsümdə İspaniya millisi Argentina və Almaniyaya 6 top, Slovakiya və Ukraynaya 5 top, yenə Ukraynaya 4 top, bir müddət əvvəl isə İtaliya millisinə 3 top vurub. Avro – 2012-də 12 qol – bu İspaniyanın qalib olduğu 2008 və 2012-ci il Avropa çempionatlarında vurduğu qol sayı qədərdir. Doğrudur, o zaman onun heyətində David Vilya və ya Fernando Torres, Xavi və İnyesta kimi superulduzlar var idi.

Məhz bunlardan sonra belə fikir yarandı: “Əgər yağış yağırsa, leysan tökürsə, əgər İspaniya formadadırsa, əgər özünə əmindirsə, bir qoldan sonra qollar sel kimi gələcək. Yox, bu İspaniya yığmasını xarakterizə edən fikir deyil. Lakin, istənilən halda bu onun qanındadır”.

Arxada qalan turlardan sonra adama elə gəlir ki, ispanlar artıq çətinliklərin öhdəsindən gəlməyi bacarırlar. “La roxa” haqqında yazan ispan mətbuatı, ispan jurnalistləri adətən sual verirlər: “Elə ola bilməzmi ki, rəqibin büllurdan çənəsi olduğu ortaya çıxsın?” Haqlı sualdır. Çünki komanda hələ yenicə formalaşır, çünki əgər Serxio Ramos və İniqo Martines zədəli olmasalar mütləq heyətdə olardılar.

Baxın, İspaniya millisi müvəqqəti “drijor” Serxio Busketsiz və Dieqo Lorientsiz



qaldı: Heç cür qol vura bilmirdi. Xorvatiya ilə oyunda 3 – 1 üstünlüyü əldən buraxdı. Ötən cümə günü isə isveçrəlilər üzərində qələbəni 11 metrlik zərbələrdə qazandı və bunda da iki zərbəni vura bilmədi. Gəncdir və təcrübəsizdir? Bəli. Formalaşmayıb? Müəyyən qədər, hə. Xarakter göstərir? Tam əmin ola bilərsiz.

Ekspertlər onu da söyləyirlər ki, baş məşqçi Luis Enrikenin bəxti gətirir. Əlbəttə, məşqçi üçün vacib olan, oyunu “oxumaqdır”. Enrike ilə müsahib olan ispaniyalı müxbirlər bildirirlər ki, o, təhlillə çox məşğul olur. Lakin bu məşqçi və bu komanda meydanda hökmranlıq etməyi çox sevirlər. Komandada düşünürlər ki, oyunu onlar özləri yönəltməli və qalib gəlməlidirlər. Rəqib haqqında düşünməyə və ya onun səhvini gözləməyə ehtiyac yoxdur. Ona görə də məşqçinin oyuna “açar tapması” son dərəcə vacibdir.

Enrike Alvaro Morataya inandı, o da məşqçinin etimadını doğrultdu. O, təkidlə müdafiənin sol cinahında Markos Loriyenteni oynatdı, sonra onu Sesar Aspilikuetanı əvəzlədi və bu yığmanın oyununa təcrübə və etibarlılıq əlavə etdi. Enrike epik əvəzləmələr etdi.

Slovakiyalılarla oyunda vurulan qollarda hər iki Torres iştirak etdi. Pau Torres, Dani Olmo və Mikel Oyarsabal Xorvatiya ilə oyunda qol da vurdular, məhsuldar ötürmə də etdilər. Elə həmin Oyarsabal İsveçrə üzərində qələbəni təmin edən 11 metrlik nöqtədən qol vurdu. İspan dilində “luchar” “mübarizə apar” deməkdir. İspaniya millisinin baş məşqçisini sadəcə “Luço” deyə çağırmırlar. O, mübarizdir, qalibdir.

Bəlkə elə bu səbəbdəndir ki, Roberto Mançini müsahibələrinin birində deyib: “Yaxşı başa düşürəm: Luis Enrikenin komandası ilə oyun son dərəcə çətin olacaq. Bu çox mürəkkəb oyun olacaq. İspaniya yığması Belçikadan fərqlənir, lakin bütün hallarda biz çoxlu çətinliklərlə qarşılaşacağıq. Biz Avstriya ilə oyunda, onların aqressiv oyunu üzündən çətinliklər hiss etdik. Həm də bu ilk pley-off oyunu idi”.

Roberto sözünə davam edərək deyib: “İspaniya son bir neçə ildə çox möhtəşəmdir, bu komandada çoxlu gənc oyunçular və əla məşqçi var. Luis Enrike “Barselona” ilə Çempionlar liqasını udub, ancaq təkcə bu da deyil. Onun çalışdırdığı “Roma” əla oynayırdı”.

## İspaniya qalib gəlməyə bilər

Bunu təsadüfən qeyd etmirəm. Səbəb bir çox ekspertlərə də aydındır. Doğrudur, qeyd etdiyimiz kimi İspaniya millisi turnirdə çoxlu qol vurub. Lakin elə də çox qol vəziyyətlərini boşa verib. Oyunçular məqamında topa zərbə endirə bilmirlər, kənara vururlar, qolkiperin– üzü və başı da daxil olmaqla bədəninin bütün hissələrinə, dirəyə, qapı tirinə topu vururlar. Qol vəziyyətlərini başqa necə boşa vermək olar. Biz Avro – 2020-də İspaniya oyunçularından bütün bunları dəfələrlə gördük.

Ən pisi isə odur ki, belə məqamlarda komandanın əsəbiləşdiyi aydın görünür. Futbolçular düşünür: “biz çalışıb çoxlu qol vəziyyəti yaradırıq, top isə qapıdan keçmir”. Onlar mətbuata müsahibələrində də bu ifadəni tez-tez işlədirlər. Hər dəfə daha kəskin və qəzəblə.

Beləliklə, dünən keçirilən yarımfinal matçının ən böyük intriqası İtaliya millisinin İspaniya futbolçularından topu ala bilib-bilməmələri idi. Enrikenin yetirmələri bu Avroda topa sahibolmada 70 faizə çatdırıb və heç həmişə onunla nə edəcəyini bilmir. İtaliyalılar da topa sahibolmanı sevir, lakin onu itirən kimi pressinqə başlayıb dərhal onu özlərinə qaytarırlar. Bu yaşlı müdafiəyə təzyiqi azaltmağın daha bir üsuludur. Bununla yanaşı, Mançininin komandası sürətlə əks-hücumlara keçməyi də yaxşı bacarırlar. Ona görə İtaliya millisi müdafiə taktikasını da seçə bilərdi.

Hər şeyi baş məşqçilərin taktiki gedişləri və komanda oyunu həll etdi. Bu haqda sabahkı nömrəmizdə daha geniş oxuya bilərsiniz.

**İlqar RÜSTƏMOV,**
**“Xalq qəzeti”**